**"TƏSDİQ EDİRƏM"**
"Azərsu" Açıq Səhmdar Cəmiyyəti

**Sədr** _______________ **Q.Hüseynov**

"4" may 2012 il.

**"Azərsu" Açıq Səhmdar Cəmiyyəti,**
**Su borcunun terminallar vasitəsilə ödənilməsi**
**üzrə inzibati reqlament**

## 1. Ümumi müddəalar

1.1. **Elektron xidmətin adı:** *Su borcunun terminallar vasitəsilə ödənilməsi*

1.2. **Elektron xidmətin məzmunu:** *Bu xidmət vasitəsilə bütün abonentlər terminallar vasitəsilə su borclarını ödəyə bilərlər.*

1.3. **Elektron xidmətin göstərilməsinin hüquqi əsası:** *"Dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 may tarixli 429 nömrəli Fərmanının 2-ci bəndi.*

1.4. **Elektron xidməti göstərən dövlət qurumunun adı:** *"Azərsu" Açıq Səhmdar Cəmiyyəti (Bundan sonra Cəmiyyət adlanacaq)*

1.5. **Elektron xidmətin digər icraçıları:** *Abonentlərin su borclarının terminallar vasitəsi ilə ödənilməsi xidməti "Komtec" MMC ilə birgə həyata keçirilir.*

1.6. **Elektron xidmətin avtomatlaşdırılma səviyyəsi:** *Bu sahədə göstərilən xidmət tam avtomatlaşdırılmışdır.*

1.7. **Elektron xidməti icra müddəti:** *Su borcunun terminallar vasitəsi ilə ödənilməsi xidməti odəmə əməliyyatı sorğusu sistemə daxil olunan kimi yerinə yetirlilir.*

1.8. **Elektron xidmətin göstərilməsinin nəticəsi:** *Müraciət edən abonentin su borcunun terminallar vasitəsilə onlayn olaraq ödənilməsi təmin olunur.*

## 2. Elektron xidmətin göstərilməsinin həyata keçirilməsi

2.1. **Elektron xidmətin növü:** *interaktiv*

2.2. **Elektron xidmət üzrə ödəniş:** *ödənişsiz*

2.3. **Elektron xidmətin istifadəçiləri:** *"Azərsu" ASC-dən su və kanalizasiya xidmətləri alan bütün abonentlər*

2.4. **Elektron xidmətin təqdim olunma yeri:** *"PayPoint" ödəmə terminalları*

2.5. **Elektron xidmət barədə məlumatlandırma:**
*e-mail: office@azersu.az*
*tel: (012) 431 47 67, 431 47 87*
*Bu prosesdə yaranan hər hansı bir anlaşılmazlığın aradan qaldırılması, həmçinin metodiki dəstəyin göstərilməsi məqsədilə Cəmiyyətin "qaynar xətt" xidmətinə (955) müraciət etmək olar.*

2.6. **Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər və onların təqdim olunma forması:** *Bu elektron xidmətdən istifadə etmək üçün yalnız abonent kodu tələb olunur.*

## 3. Elektron xidmətin göstərilməsi üçün inzibati prosedurlar

3.1. **Elektron xidmətin göstərilməsi və ya imtina edilməsi:**
*Bu elektron xidmətdən istənilən vaxt istifadə etmək olar. Xidmətin göstərilməsindən yalnız serverlərlə internet əlaqəsi kəsildikdə, serverlərə profilaktik qulluq göstərildikdə və elektron xidmətin digər iştirakçının sistemində nasazlıq yarandıqda müvəqqəti olaraq imtina olunur.*

3.2. **Sorğunun icrası:** *Abonentlər terminal vasitəsi ilə ödəniş etmək üçün terminalın müvafiq yerlərinə abonent kodunu və pulu daxil etməklə sistemə ödəniş haqqında sorğu verə bilər.*

3.3. **Elektron xidmətin yerinə yetirilməsinə nəzarət:** *Xidmətin yerinə yetirilməsinə nəzarəti Cəmiyyətin İnformasiya və Kommunikasiya Texnologiyaları Departamenti və Kommersiya Departamenti həyata keçirir.*

3.4. **Elektron xidmətin göstərilməsi üzrə mübahisələr:** *Su borcunun terminallar vasitəsilə ödənilməsi xidməti üzrə qanunvericiliyə uyğun olaraq şikayət verilə bilər.*